**10 sentyabr 2020**

## Orta İxtisas təhsili müəssisələrində sosial məsafənin təmin edilməsi ilə bağlı TƏLİMAT

01 oktyabr 2020-ci il tarixindən etibarən ölkənin orta ixtisas təhsili müəssisələrində tədris və təlim-tərbiyə prosesinin başlanmasını nəzərə alaraq, sosial məsafənin saxlanılması ilə əlaqədar kolleclərin rəhbərləri tərəfindən aşağıdakılar təmin edilməlidir:

- Tələbələr kollecin həyətyanı sahəsində sosial məsafənin saxlanılması məqsədilə yerdə çəkilmiş dayanma işarələrinin üzərində dayanmalıdırlar;
- Həyətyanı sahədə sosial məsafənin saxlanılması və növbə ilə kollecə daxil olma prosesinin tənzimlənməsi üçün tələbə kontingentinin sayından asılı olaraq əməkdaşlar ayrılmalı və auditoriyalara təhkim edilməlidir
- Kollecin girişində hər bir tələbənin hərarəti ölçülməli və hərarət 37.1° C dərəcədən aşağı olduğu halda, tələbə auditoriyaya yönəldilməlidir, hərarət qeyd edilən həddən yüksək olduqda, təxirəsalınmadan kollecin həkimi tərəfindən tələbə və onun valideyni təlimatlandırılmalı və tələbə geri qaytarılmalıdır.

### Sosial məsafənin saxlanılması məqsədilə kollecin həyətyanı sahəsində dayanma işarələrinə verilən tələblər:

- Tələbə kontingentinin sayına və kollecin həyətyanı sahəsinə uyğun çəkilmiş dayanma işarələri ölçüsü (diametri) 20-30 sm olan dairə, kvadrat, düz xətt şəklində ola bilər;
- Dayanma işarələri ağ rəngli boya, yaxud əhəng ilə çəkilməlidir;
- Dayanma işarələri arasındakı məsafə ən azı 2 m olmalıdır. (Şəkil 1, Şəkil 2, Şəkil 3, Şəkil 4, Şəkil 5, Şəkil 6)
- Əgər kollecin binasına (korpuslarına) 1-dən çox giriş qapısı varsa, o zaman giriş qapıları müvafiq hərflərlə kodlaşdırılmalı (A, B, C və s) və hər bir giriş qapısının önündə sosial məsafənin gözlənilməsi üçün dayanma işarələri çəkilməlidir. Bu proses daha çox tələbə sıxlığı çox olan kolleclərə tövsiyə edilir və bu zaman elektrik hərarət ölçən cihazın sayı nəzərə alınmalıdır. Belə bir variant tətbiq ediləcəyi təqdirdə, hansı girişdən daxil olacağı barədə valideynlərə əvvəlcədən bildirilməlidir.

### Valideynlərə verilən tələblər:

- Sosial məsafənin saxlanılması məqsədilə valideynlər yerdə çəkilmiş dayanma işarələrində övladının yanında dayanmalıdırlar;

- Övladı kolleccin giriş qapısına daxil olduqdan sonra valideynlər kollecin həyətyanı sahəsini tərk etməlidirlər.

**Aşağıdakı hallar yolverilməzdir:**

- Kollecin həyətyanı sahəsində tələbələrin və valideynlərin sosial məsafə saxlamadan kütləvi halda toplaşması; (Şəkil 7)
- Kollecin həyətyanı sahəsində tələbələrin və valideynlərin sosial məsafə saxlamadan kütləvi halda şəkil çəkdirməsi. (Şəkil 8)

**Orta ixtisas təhsili müəssisələrinin rəhbərlərinin məsuliyyəti:**

- Qeyd olunan məsələlərin mövcud qayda və təlimatlara uyğun şəkildə həyata keçirilməsinə nəzarəti orta ixtisas təhsili müəssisəsinin rəhbəri tərəfindən həyata keçiriləcəkdir;
- Təhsil Nazirliyinin müvafiq struktur bölmələri tərəfindən mütamadi olaraq prosesə nəzarət məqsədilə yerlərdə keçirilən monitorinqlər zamanı müvafiq qaydalara əməl etməyən müəssisə rəhbərləri aşkarlandığı halda, onlar barəsində intizam tənbehi tədbirləri həyata keçiriləcəkdir.




Şəkil 1



Şəkil 2



Şəkil 3



Şəkil 4



Şəkil 5




Şəkil 6



Şəkil 7

**10 sentyabr 2020**



Şəkil 8